# SABİR BƏŞİROVUN ƏDƏBİ YOLU, ƏBƏDİ YOLU



**Şəddat CƏFƏROV**

***"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü***

Azərbaycan ədəbiyyatının elə maraqlı sözü, sənəti ilə haləsində cazibə yaradan simaları var ki, onları asanlıqla unutmaq olmur. Çünki sağlam mənəvi mühitləri ilə sözünün cazibəsi olan ədəbiyyat adamları cəmiyyətin mənəvi nizamını qorumaq gücündə olurlar. Müasirlərimizin sırasında mənəvi mühitləri ilə cəmiyyətin həyatına əlvanlıq gətirən söz-sənət adamları şəxsi həyatlarındakı səmimiyyətləri ilə də öz müasirlərinin sevgisini qazanırlar. Xalq şairi Zəlimxan Yaqub, görkəmli filosof Camal Mustafayev - Dədə Camal, çox istedadlı tənqidçi-folosof Sabir Bəşirov, görkəmli şair dramaturq Aqşin Babayev... bir çox başqalrının da adlarını sadalaya bilərəm. Onların, demək olar ki, hər biri ilə ictimai həyatın müxtəlif sahələrində, tədbirlərdə, ədəbi yığıncaqlarda, təntənəli yubiley günlərində görüşmüşəm, ünsiyyətimiz olub. Hiss etmişəm ki, təkcə özü üçün yox, bütöv cəmiyyət üçün, insanlar üçün, vətən naminə bütün varlığı ilə çarpışan, mübarizə aparan sənətkarlar var və onların sözləri, söhbətləri, yaradıcılıq örnəkləri həyatımızı zənginləşdirib.

Bəlkə də bu barədə çox geniş danışmaq olar. Ancaq bir qədər seçdiyim mövzunun əhatəsinə qayıtmaq zərurəti məni daha çox mövzuya doğru yönəldir. Sabir Bəşirovla da şəxsi əlaqələrimiz o qədər də dərinləşməmişdi. Ancaq mən Sabir Bəşirovu uzun illər dostluq etdiyi adamlardan az tanımırdım.

Oxucularıma yaxşı məlumdur ki, mən *"Kredo"* qəzetinin uzun illər təkcə oxucusu yox, həm də müəlliflərindən biri olmuşam. Həyatımın müxtəlif sahələri ilə bağlı bu qəzetdə ardıcıl yazılar yazmışam. Cəmiyyəti narahat edən problemlərə münasibət bildirməyə çalışmışam. Eləcə də, bu qəzetdə haqqımda yazılmış əsərlərin təhlilinə də geniş yer verilib. Sevda Əlibəyli, Cavad Zeynal, Ceyhun Zallı, Yadulla Ağazadə, Ağamir Cavad, Elşad Səfərli - bir çox başqalarının da imzası ilə haqqımda yazılmış məqalələr mənim həyatımı zinətləndirib. Sabir Bəşirovun da imzasını həmişə, ardıcıllıqla izləyirdim. Xüsusilə onun *"Yaddaşa aparan yollar"* (Əli Rza Xələfli) kitabı ilə bağlı qeydlərində adımı çəkməsi, bizim mətbəənin fəaliyyətini yüksək dəyərləndirməsi məndə dərin təəssürat oyatmışdı.

Axır ki, onun *"Əli Rza Xələfli: Ədəbi yol-əbədi yol"* kitabı bizim mətbəədə nəşrə hazırlandı. Həmin kitabla bağlı telefon əlaqəmiz oldu. Mən kitabı tezliklə nəşr edəcəyimizi bildirdim. Əlbəttə, mən nə qədər işi sürətli görsəm də, tale bizdən də artıq tələsdi və Sabir Bəşirovu aramızdan apardı. Bu yerdə istəyirəm ki, Sabir Bəşirovun həyatı ilə bağlı xronikanı oxucuların diqqətinə çatdırım: **Tənqidçi-esseist, filosof Sabir Qılınc-xan oğlu Bəşirov 20 noyabr 1956-cı ildə Yardımlı rayonunun Peştəsər kəndində anadan olmuşdu. O, ucqar kənddə yaşasa da, Azərbaycan ədəbi proseslərinin fəal iştirakçısı olub. Peşəkar tənqidçi kimi tanınıb və ədəbi mühitin istiqamətləndirilməsində əvəzedilməz rol oynayıb. Qeyd edək ki, Sabir Bəşirov on beşdən çox kitabın, 100-ə qədər elmi məqalənin, "Anar" (1994), "Ələbbas: Sözün köhnə kişisi" (2005), "Sabir Rüstəmxanlı: Sərhədsiz ruhumuzun yolçusu" (2006), "60-cılar nəsrinin etik problemləri" (2006), "Yaradıcılıq şəxsiyyətlə üst-üstə düşəndə..." (2010), "Nizami Cəfərov: Şəxsiyyət və yaradıcılıq fenomeni" (2010), "Nəriman Əbdülrəhmanlı: İşıq adam" (2010), "Xanəli Kərimli: Bir ömrün nağılı" (2011), "Firuz Mustafa: İdrakla hissin vəhdəti" (2012), "Əjdər Ol: Nəsrin imkanları" (2014), "Yunus Oğuz: Elmi təfəkkürlə bədii təfəkkürün vəhdəti" (2015), "Əli Rza Xələfli: Ədəbi yol-əbədi yol" (2018) kimi kitab və monoqrafiyaların müəllifidir. Sonuncu kitabı ölümündən sonra işıq üzü görür. 1989-cu ildə "Metodist müəllim" və "Qabaqcıl maarif xadimi" adlarını qazanmışdır. Doğma kəndində bir qərinəyə qədər vaxt ərzində pedaqoji fəaliyyət göstərib. 20 sentyabr 2018-ci ildə işlədiyi Peştəsər məktəbində ürək tutmasından qəflətən vəfat etmişdir.** Ziyalının, özü də Sabir Bəşirov kimi ziyalının həyatdan vaxtsız getməsi onu tanıyanların hamısında sarsıdıcı iz buraxdı. Mən özüm də çox təəssüf etdim. Biz kitabı Sabir Bəşirovun ölümündən 10 gün sonra oxuculara çatdırdıq.

Sabir Bəşirov haqqındakı tərcümeyi-hal qeydlərindən də göründüyü kimi o, ədəbi mühitlə nəfəs alırdı. Sözün həqiqi mənasında Azərbaycan ədəbiyyatının bütün qollarını, xüsusilə nəsr sahəsini ardıcıl izləməkdə idi. Dəyərli yazılarını müntəzəm olaraq *"Kredo"* qəzetində çap etdirirdi.

Əlbəttə, Sabir Bəşirov haqqında danışmaq indiki məqamda o qədər də asan deyil. Ancaq həqiqət naminə danışmamaq da mənəvi cinayət olardı. Mən təəssüf edirəm ki, Sabir Bəşirovun vəfatından sonra onun haqqında az yazılır. Elə Sabir Bəşirovun özünün hər birinin yaradıcılıq taleyinə kitab həsr etdiyi Sabir Rüstəmxanlı, Nəriman Əbdürrəhmanlı, Əli Rza Xələfli, Xanəli Kərimli və digərləri Sabir haqqında yeni xatirə kitabının hazırlanmasını özlərinə mənəvi borc bilməlidirlər.

Sabir Bəşirovun bütün əsərləri çox dəyərlidir. Ancaq onun haqqında danışacağım kitabı mənim üçün xüsusi əhəmiyyət kəsb edir. Axı bu kitabın nəşrinə mən rəhbərlik etmişəm. *"Əli Rza Xələfli: Əbədi yol-ədəbi yol"* kitabı Sabir Bəşirovun qələminə məxsus xüsusi cazibədar üslubda yazılıb. Bu kitabın hər səhifəsində onun müdrikliyi, mənaların dərinliyinə varmaq gücü özünü göstərir. Kitabın annotasiyasında (onu da deyim ki, bu annotasiyanı da biz hazırlamışdıq) oxuyuruq: *"Tənqidçi-esseist, filosof Sabir Başriovun "Əli Rza Xələfli: ədəbi yol-əbədi yol" kitabına şair-publisist, nasir, ədəbiyyatşünas, tənqidçi Əli Rza Xələfinin zəngin yaradıcılığından bəhs edən məqalələri toplanıb. Müəllif son on ildə sənətkarın ədəbi fəaliyyətini ardıcıl müşahidə edə bildiyindən məqalələrini zəngin ədəbi faktlar əsasında qələmə alıb. Ona görə də kitab Ə.R.Xələflinin yaradıcılığı haqqında dolğun təsəvvür yaradır. Filosof tənqidçinin məqalələri müdrikin canlı söhbətləri təsiri bağışladığından geniş oxucu auditoriyası üçün də maraqlı olacağına inanırıq".* Göründüyü kimi müəllifin can yanğısı ilə qələmə aldığı kitabın mahiyyəti bu qeydlərdə açıq-aşkar duyulur.

Sabir Bəşirov sözü sevən adam idi. Onun hər bir yazısında sözə hədsiz dərəcədə həssas yanaşma duyulurdu. Sabir Bəşirovun bu həssaslığını kitaba *"Ön söz"* yazmış ədəbiyyatşünas şair Sərvaz Hüseynoğlu da düzgün duymuş və qiymətləndirməyə çalışmışdır: *"Dünyanın xali olmadığı həmin o anlayan, səni (məni, o birini), ədəbi və ictimai qovğaların mahiyyətini başa düşən qələm, söz adamlarından idi Sabir Bəşirov... Sonra xalq şairi Sabir Rüstəmxanlının sənət yolu və ictimai fəaliyyəti barədə yazdığım "Ruhla zaman arasında" kitabım işıq üzü gördü. Bir neçə il keçdi. Sabir Bəşirovun da S.Rüstəmxanlı haqqında çox dəyərli bir kitabı çap olundu. Baxıb gördüm ki, "eyni qapını döyürmüş eyni taleli adamlar". Baxıb gördüm ki, Sabir Bəşirovla məni seçib-ayırmaq mümkünsüz olan bir ruh oxşarlığı, münasibət doğmalığı bağlayır".* Axı dedim ki, Sabir Bəşirov sıradan biri deyil. Elə onun sıradan biri olmadığını Sərvaz Hüseynoğlunun qeydlərindən də görmək olar.

Sərvaz Hüseynoğlu kitaba *"Ön söz"* yazırkən Sabir Bəşirovun məqalələrini diqqətlə oxuyur, onun hər bir cümləsində mənanı açmağa, oxucunun diqqətinə çəkməyə çalışır.

Bizim üçün həyat o vaxt dəyərli olur ki, müasirlərimiz bizi yaxşı duysunlar. Bizi tanıya bilsinlər. Bu mənada Sabir Bəşirov dəyərli sözü olan qələm sahiblərini təkcə yaxşı tanımırdı. Həm də yaxşı tanımağını sözə gətirə bilirdi. Mən də Sərvaz Hüseynoğlunun qeydlərini ardıcıl izləməklə onun Sabir Bəşirov təbiətinə necə həssaslıqla yanaşmasını görməkdən fərəh duyuram. Bu o deməkdir ki, Sabir Bəşirov yenə bizimlə birgə gələcəyə doğru yoluna davam edir. Ən maraqlısı da odur ki, heç Sərvaz Hüsyenoğlu da Sabir Bəşirovla şəxsən tanış olmayıb. S.Bəşirovun həm yaradıcılıq yolunu, həm də şəxsi təbiətini elə onun əsərlərindən öyrənib. Və bunu etiraf etməkdən məmnunluq duyduğunu da gizlətmir: *"Şəxsən tanış deyildik. Yuxarıda qeyd etdiyim reallıqlar S.Bəşirova qarşı sonsuz bir maraq hissi doğurmuşdu. Həm də, nə gizlədim, sevimli mövzularımdan irəli gələn daxili bir sənət qısqanclığı. Amma mən "Ədəbiyyat qəzeti"ndə təzəcə işə başladığım ilk günlərdə gözləmədiyim halda iş otağıma bir nəfər daxil oldu, sualqarışıq səmimiyyətlə adımı çəkib əl uzatdı: "Sərvaz?.." Heç özüm də bilmədən, bəlkə də karıxdığımdan ağlıma gələn ilk adı dedim: "Sabir Bəşirov?!".* Təsdiqə ehtiyac qalmadı. Oturub xeyli söhbətləşdik. Həssaslığını, təmənnasızlığını gördüm. İkiyə bölünmüş alma kimiydik. Və S.Bəşirov imzasına olan o sayğılı qısqanclıq hissim də həmin andaca ötüb-keçdi. Mənə qalan yenə də o imzaya maraq və heyranlıq hissi oldu... Əvəzində Sabir Bəşirovun indi oxucu diqqətinə təqdim edilən *"Əli Rza Xələfli: ədəbi yol-əbədi yol"* kitabında ifadəsini tapan münasibət mükafatı qazandım; Sabir bəy hələ şəxsən tanış olmadığımız zamanlarda bu mükafatı belə həkk etmişdi əbədiyaşar düşüncəsinə: *"İstər elmi, istərsə də bədii istedad baxımından hörmət etdiyim, bəziləri ilə heç kəlmə kəsmədiyim insanları da özümə dost bilirəm. Bu sırada Bəsti Əlibəyli, Əsgər Rəsulov, Sərvaz Hüseynoğlu, Əbülfət Mədətoğlu... kimi dəyərli insanlar var".* Bu təəssürat qarışıq xatirə mənzərəsini seyirçi bir nəzərlə oxumaq mümkün deyil. Balaca bir mətnin içərisində Sərvaz Hüseynoğlu ədəbiyyatımızın görkəmli simalarının obrazlarını yaradır. Əlbəttə. Bu obrazlar sırasında Sabir Bəşirovun portretin daha qabarıq və aydın, deyərdim ki, bütün əlvanlığı, rəngarəngliyi ilə görünür.

S.Bəşirov müasirlərini qədərində və həm də obyektivliklə cəmiyyətə tanıtmaqdan mənəvi zövq alırdı. Onun həssas yanaşması ilə ədəbiyyatımızın ən görkəmli adamlarını biz sanki yenidən tanıyırdıq. Onun Əli Rza Xələfliyə münasibəti də ədəbiyyata sevgi hisslərindən qaynaqlanırdı. S.Hüseynoğlu bu məqamları da ümumi söz müstəvisində dəqiq görə bilir və onu seçmələrlə oxucusuna təqdim edir: *"Sabir Bəşirov bu dost dəyərləndirmələri haqqında olan fikirlərini diqqətə təqdim edilən monoqrafiyada davam etdirərək yazır: "Bəzən adam elə insanlarla tanış olur ki, yarım saatlıq söhbətdən sonra elə bilirsən onunla bir yerdə böyüyübsən... Mənim o biri dostlarımla müqayisədə çox gec tanış olduğum dəyərli dostum, istedadlı şair, publisist, nasir Əli Rza Xələfli belə insandır". Dəqiq müşahidədi. Əgər Əli Rza Xələfli barəsində mən də yazası olsaydım, mütləq o yazı belə başlayardı. Yəni, Əli Rza Xələfli də bizim özümüz kimidi. Sabir bəy haqlıdı: "Əli Rza Xələfli sıradan olan qələm sahibi deyil... O, poeziyada və publisistikada simasını müəyyən edən sənətkardı... Onun poetik istedadı bənzərsiz və qeyri-adiliyi, müəyyən məqamlarda poeziyamızda "ilk"ləri ilə fərqlənir...".* S.Hüseynoğlunun bu qeydləri göstərir ki, insanın həyatında ən üstün önəm verilməli cəhət onun mübarizə əzmini qorumasıdır. Yəni, insan inamlı və ümidlidirsə, onun mübarizəsi də davam edir. Doğru deyirlər ki, insanın inamı və ümidi onun üçün həyat stimuludur. S.Bəşirov həyata sonsuz ümidlə baxır, sözlə yaşamağında özünün də həyatını yaşamalı olurdu.

Görkəmli tənqidçi-filosof Sabir Bəşirov dostu Əli Rza Xələfli haqqında yazdığı məqalələri bir kitab halında görmək istəyirdi. Hətta kitabının cəmiyyətdə hansı təəssüratı yaradacağını intizarla gözləyirdi.

Əlbəttə, kitabdakı məqalələrin çox dəyərli məzmunu var. Mümkün qədər bu məqalələrin məziyyətləri haqqında bir qədər geniş söhbət açmaq məqsədim var, amma hələlik S.Bəşirovun monoqrafiyasının məziyyətini ifadə edən qeydlərini də oxucudan əsirgəmirəm: *"Yaradıcılıq dünya yaratmaqdır. Ə.R.Xələfli poeziyası ilə öz dünyasını yaradıb, ancaq görünür, bu yaratdığı dünyanı daha mükəmməl etmək üçün bir-birindən maraqlı esselər və nəsr nümunələrinə ehtiyac duyub. Bu esselər və nəsr əsərləri Ə.R.Xələfli dünyasını tamamlayıb... Ancaq belə görünür ki, yaratdığı dünyanın mükəmməlliyi və bütövlüyü üçün hələ yenə nəsr əsəri yazmaq lazım gələcək...".* Elə Sabir Bəşirovun özünün fikirlərindən çıxış edərək mən də demək istərdim ki, o da öz zəkası ilə ədəbi, elmi, fəlsəfi yaradıcılığı ilə Sabir Bəşirov dünyasını yaradıb. Biz Sabir Bəşirovun timsalında "Sabir Bəşirov dünyasının" qədrini bilməli, onun bu zəngin dünyasının əlvanlığından ruhumuza qida götürməliyik.

Zənnimcə, Sabir Bəşirov yaradıcılığı hələ bundan sonra daha dəqiq və əhatəli öyrəniləcək. Mən buna inanıram.

***(Davamı 11-ci səhifədə)***

# SABİR BƏŞİROVUN ƏDƏBİ YOLU, ƏBƏDİ YOLU

***(Əvvəli 10-cu səhifədə)***






Deyirlər ki, dəvələr, fillər, eləcə də canavarlar ölümlərini qabaqcadan hiss edirlər. Elə bu səbəbdən də ölümqabağı sakit bir əbədi məkan seçirlər. Mənə elə gəlir ki, insanda da belə bir hissiyat olur. Doğrudur, əbədi yaşamaq inamı insanı son anacan tərk etmir. Bəlkə elə bu səbəbdən də ölümləri üçün qabaqcadan tədarük görə bilmirlər. Amma ölümlərini hiss edirlər. Hətta ölümqabağı "insan işıq salır"ifadəsi də xalq arasında çox işlənir.

Azərbaycan ziyalılığının görkəmli nümayəndəsi, təbiət etibarı ilə müdriklik timsalı olan filosof Sabir Bəşirovun sonuncu kitabını vərəqləmək, özü də ağır təəssüratlar altında səhifələri çevirmək mənə asan başa gəlmir. Bu adamın ölümqabağı əslində həyatının təhlükəli zonaya daxil olduğu bir vaxtda necə qaynar həyat düşüncələri yaşadığını müşahidə etmək bəs edir ki, onun zəngin təbiəti haqqında fərəhli duyğularla düşünəsən. Kitabın səhifələrini çevirirəm. Müəllifdən qeydləri ilə verilmiş *"Xələfliyə bir məktub"* adlı yazı monoqrafiya üçün müəllif sözü kimi nəzərdə tutulmuşdur. Adətən müəlliflər kitablarına *"Ön söz"* yazanda oxucuya müraciət edir, əsərinin yazılma səbəbini şərh edir, oxucuda hansı təəssürat yaradacağı haqqında narahatlıqlarını bildirməkdən çəkinmirlər. Doğrusu, mənə də elə gəldi ki, Sabir Bəşirov monoqrafiyanın əvvəlinə yazdığı bu məktubda elə həmin məqamlara toxunmuş olar. Amma yazını oxuyub gördüm ki, mətn başdan-başa yaradıcılıq istəyi ilə alışıb-yanan bir ziyalının həyat, cəmiyyət haqqında düşüncələridir. Sabir Bəşirov təbiətinə uyğun olaraq ümumi dünya nizamını qorumaq məqsədi ilə ömrü boyu qələm çalıb. Elə bu qeydlərində də ümumi kredosuna sadiqliyini göstərir. Məktubun əvvəlində dostu Əli Rza Xələfliyə müraciətlə bildirir ki, yazı imkanı tükənib. Əvvəlki qədər həvəslə olmasa da, oxumağından qalmır, amma düşüncələrini yazıya gətirəndə səhhətində yaranmış problemlər yazı yaradıcılığına mane olur. Əlbəttə, belə bir ziyalının vaxtsız gedişi cəmiyyət üçün nə qədər itki olsa da, hər halda izsiz getməyib, özündən sonra dəyərli kitabları, dəyərli əsərləri qalıb.

Sabir Bəşirov yazı imkanlarının çətinləşməsindən danışsa da, elə bu məktubu ilə də göstərir ki, hələ nə qədər geniş düşüncə imkanları varmış. Çatdırıb təəssüratlarını geniş şəkildə yazmaq imkanı olmasa da, Xələflinin *"Bir ayrılıq odu var"* kitabı haqqında söhbət açmağı unutmur, hətta həmin kitabın məziyyətlərini də təhlilə çəkir. Kitabın janrı haqqında da rəy bildirir. O, əsəri "poema-epos" adlandırır. Zənnimcə, Sabir bu məsələdə qənaətini düzgün bildirib. Hiss olunur ki, həmin əsəri diqqətlə oxuyub və zəngin təəssürat alıb. Xələflinin *"Bir ayrılıq odu var"* kitabına *"Ön söz"* yazmış professor Təyyar Salamoğlunun qeydlərini də diqqətindən kənarda qoymur. Bütün bunları ona görə deyirəm ki, Sabirin varlığında yaradıcılıq vulkanları son ana qədər alovlanmaqda olub. Onun məktubunda yer almış qeydləri göstərir ki, son ana qədər Xələflinin yaradıcılığını diqqətlə izləyib, hətta son kitablarının adlarını da çəkir: *"Əzizim Əli Rza Xələfli, sənin məhsuldar işləməyinə, çoxlu yazmağına kiminsə şübhəsi yoxdur. Son bir-iki ildə bir neçə kitabın işıq üzü görüb. Bu barədə mən nisbətən əhatəli "Əli Rza Xələfli - 65" adı ilə tərtib etdiyim ikicildliyin birinci cildinin "Ön söz"ündə sənin son kitabların haqqında məlumat verməyə çalışmışam. Azərbaycanın tanınmış söz-sənət adamları, çox istedadlı şair, əməkdar jurnalist, telepublisist Avdı Qoşqar, şair-publisist Mədət Əyyuboğlu, şair-esseist Nəcməddin Mürvətov haqqında hazırladığın kitablar da təqdirəlayiqdir. Bu kitabların hər biri də ədəbi tənqidin diqqətini cəlb edə bilər və etməlidir. Ancaq mən sənin daha bir uğurun haqqında bir-iki kəlmə də demək istəyirəm".* Təkcə elə bu qeydlər göstərir ki, Sabir Bəşirov ədəbiyyat cəbhəsinin son ana qədər ən sədaqətli əsgəri olub.

Onu da deyim ki, Xələflinin yaradıcılıq yolunu müasirləri nə qədər poeziyası ilə izləsə də, o həm də dövrümüzün maraqlı nasirlərindən biridir. Bizim nəşr etdiyimiz *"Od"* romanı, *"Qiyamətdən bir gün əvvəl"* povesti Xələflinin nəsr sahəsində də imkanlarının genişliyini göstərir. Sabir Bəşirov ölümündən 9 gün əvvəl yazdığı məktubda *"Qiyamətdən bir gün əvvəl"* povestinə xüsusi yer ayırır. Hiss olunur ki, əsəri bütün mahiyyəti ilə varlığına çəkib, sanki əsər haqqında ruhunun bir parçası kimi danışır.

Yaxşı olar ki, onun öz qeydlərinə istinad edim: *"Qiyamətdən bir gün əvvəl" - bu əsər sənin nəsr imkanlarının yeni hüdudları haqqında kifayət qədər təsəvvür yaradır. Əsərin baş obrazı əsas oxucu kütləsinə görə gənc şair Turan Türksoydur. Ancaq mənim düşüncəmdə bu əsərin baş qəhrəmanı vətənin tarixi taleyi uğrunda mübarizə aparan Boz Qurd ruhunun daşıyıcısı türk fenomenidir. Əziz dostum, əsərin əvvəlində "Müəllifdən" qrifi ilə "Sığmazlıq, yaxud Göydəmir ürgənin ölümü" adlı yazını həyəcansız oxumaq mümkün deyil. Göydəmir ürgə azadlığı uğrunda həyatı bahasına mübarizə aparan türkün özüdür. Ən az həssaslığı olan oxucu da Göydəmir ürgənin hasardan atlanışı ilə şahidliyə qovuşmasını həyəcansız yaşaya bilməz. Təkcə elə bu epizod əsərin gələcək taleyi haqqında qədərincə apokalipsis məlumatı verir. Öncəgörmə insanlara nə gətirir? Bədbəxtlikmi, xoşbəxtlikmi? Bunu qabaqcadan demək olmur. Amma "Sığmazlıq" müəllifin hansısa düşüncələrinin yekunu haqqında qədərincə məlumat verir".* Göründüyü kimi S.Bəşirov dostuna sadə bir məktub, əgər belə demək mümkünsə, hal-əhval məktubu yazmayıb. O, yaradıcılıq coşqusu ilə dostunun əsərini özünün zəngin düşüncə aləmindən keçirir. Bu əsərin onun varlığında yaratdığı təəssüratları filosof-tənqidçi mövqeyindən şərh edir.

Məlumdur ki, Xələflinin həmin povesti oxucular arasında ciddi maraq doğurur. ədəbi tənqidə mövqeyini bildirməkdən çəkinməyib. S.Bəşirov bu yerdə Seyfəddin Rzasoyun adını yada salır və onun fikirlərinə istinad edir: *"Qoy elə bəri başdan deyim. Bu məqamları görkəmli folklorşünas alim, mifoloq Seyfəddin Rzasoy da qədərincə tutub və qiymətləndirə bilib. Xüsusilə, onun əsərin müəllifi haqqında Tənha Ozan obrazı ilə düşüncələri çox maraqlıdır".* Xələflinin *"Qiyamətdən bir gün əvvəl"* povestinə professor Seyfəddin Rzasoyun elmi yanaşması son dərəcə diqqət çəkəndir. Professor *"Ön söz"*ün müəllifi olaraq obrazların hər birini diqqətlə xarakterizə edir: *"Əli Rza Xələflinin "Qiyamətdən bir gün əvvəl" povesti bütün strukturu ilə semiotik konstruksiyadır. Bu konstruksiya simvolik proyeksiyalandırma üzərində qurulub. Bütün obrazlar öz aralarında universumlaşaraq simvolik işarələrə çevrilir. Obrazlar sistemin təsnifat strukturunun əsasında bəşəri-universal xeyir-şər (yaxşı-pis) modeli durur: Şər paradiqmasını Kin, Nifrət, Qərəz, Qara İlan, bəndəni tanımayan Adam(lar) və s. kimi anti energetikaya malik obrazlar təşkil edir. Xeyir qütbü Boz Qurd və Turan Türksoy obrazları ilə təmsil olunur. Hər iki obraz milli energetikanı təcəssüm etdirən simvoldur. Boz Qurd - ilkin stixial yaradılışı, Turan - ilkin stixial məkanı təcəssüm etdirir. Mahiyyətcə hər iki obraz türk etnosunun kosmoqonik-yaradıcı gücünü müxtəlif səviyyələrdə təcəssüm etdirir: Boz Qurd - heyvan, Turan - insandır. Biri təbiəti, o biri cəmiyyəti simvollaşdırır. Lakin hər iki obraz mifoloji-semiotik struktura malikdir. Boz Qurd - bir heyvan kimi türklərin əcdadıdır: türkün bütün bioantropoloji tarixi bu obrazda öz təcəssümünü tapır. Turan - bir insan kimi, bir tərəfdən insanı, o biri tərəfdən türkün Turan adlanan dünyasını - türklə mənalanan və müqəddəsləşən torpağı təcəssüm etdirir. Müəllif, beləliklə, mənsub olduğu dünyanı və onun əsərdəki bədii proyeksiyasını bütünlüklə sakral presedentlər əsasında təşkil edir. Bununla da Əli Rza Xələflinin düşüncəsində(n) yaranan mətndə Mif (Boz Qurd, Turan), Epos (İran-Turan) və Tarix (Qarabağ, Şuşa, Xocalı...) öz maddi görüntüləri ilə dekonstruksiya olunaraq, qovuşur".* Əsər həcmcə o qədər böyük olmasa da, struktur baxımından maraqlı olduğu qədər həm də mürəkkəbdir. Professor S.Rzasoy kitaba yazdığı *"Ön söz"*də əsərlə ruhunu o qədər qovuşdurur ki, sanki özü də müəlliflə birgə hadisələrin içərisinə daxil olur. Görünür, elə Sabir Bəşirov da professorun daxili yanğı ilə yanaşmasını səmimi münasibəti ilə etiraf edir: *"Professor S.Rzasoyun görə bildiyi obrazlar mənzərəsinə heç nə artırmaq istəməzdim. Ancaq bir-iki kəlmə ilə demək istərdim ki, son dövr ədəbiyyatımızda Boz Qurd və canlı insan - həm Turan Türksoy, həm də onun anası mahiyyətini qovuşdura bilən bir əsər, demək olar ki, yoxdur. Ən azı mən bu barədə məlumatsızam".* Bu qeydlər Sabir Bəşirovun nə qədər cəsarətli bir fikir sahibi olduğunu da göstərir. Əsərin ədəbiyyatımızda yeni mövqe sərgilədiyini dəqiq müşahidə edir və bir çox məqamlarda Seyfəddin Rzasoyun mövqeyi ilə öz mövqeyini birləşdirir.

*"Qiyamətdən bir gün əvvəl"* povestində hadisələrin mahiyyətini açmaq üçün Əli Rza Xələfli orijinal vasitələrdən istifadə edir. Əslində Sabir Bəşirovu da Xələfliyə məktub yazmağa sövq edən, ona ilham qaynağı kimi enerji verən müəllif mövqeyinin aydınlığıdır. *"Qiyamətdən bir gün əvvəl"* povestində əsərin qəhrəmanının gündəliklərindən istifadə olunur. Bu, əlbəttə, yazıçı təxəyyülünün məhsuludur. Amma obrazın bütün gücü və aydınlığı ilə oxucu yaddaşına hopmasında əsaslı əhəmiyyət kəsb edir. Sabir Bəşirov məktubunun sonluğunda gündəlikləri də xüsusilə dəyərləndirir: *"Əli Rza Xələfli bir müəllif olaraq obrazın təbiətini açmaq üçün "Gündəlik" adı ilə bir ədəbi vasitədən istifadə edir. Bəlkə də, bu, təzə deyil, amma əsərdə tam orijinal təsir bağışlayır. Gündəliklərdən parçaları oxuduqca Turan Türksoy gözümüzdə mənən böyüyür, ucalır, son nəticədə Turan Türksoyun və Boz Qurdun axırı bizdə əbədiyyət anlamı - ölümsüzlük inamı yaradır".* Sabir Bəşirov cəmiyyətin, həyatın gələcəyinə inanan ziyalı idi. Amma təbiət etibarı ilə narahat ziyalı idi. Onu Azərbaycan istiqlalı nə qədər fərəhləndirsə də, Qarabağın hələ də işğalda qalması məsələsi ciddi bir problem kimi onun ziyalı varlığını üzürdü.

Əlbəttə, biz çox istəyərdik ki, Sabir Bəşirov qələbəmizi görsün. Şuşanın azadlıq sevincini yaşaya bilsin. Elə dostu Xələfli ilə birgə Xudafərinə də səfər etsin. İmkan olsa, monoqrafiyanın digər hissələri haqqında ayrıca danışarkənSabir Bəşirovun Qarabağ, Şuşa, Xudafərin həsrətlərinə də işıq salmağa çalışacağıq.

Sabir Bəşirov Yardımlıda yaşayırdı, dağlar qoynundakı doğma Peştəsər kəndində. O, öz kəndində yaşaya-yaşaya elə oradaca böyük bir yaradıcılıq aləmi yaratmışdı. Amma həyat kimsənin istəyi ilə cərəyan etmir. Təbiətin qanunları öz bətnindən gələn enerji ilə milyon illərdir ki, öz yolundadır.

Görünür, təbiətin və cəmiyyətin qarşılıqlı əlaqələri zamanı elə nüanslar olur ki, ondan baş çıxarmaq ayrılıqda bir insan üçün asan başa gəlmir. Sabirin qeyd etdiyi kimi Əli Rza Xələflinin sözlərinə bir daha inanırıq: *"Həyatın elə qaranlıqları var ki, bir günəş bəs eləmir onu axıracan işıqlandıra bilsin".* Gərək bu hökm haqqında hamımız düşünək - Sabir doğru deyir. Həyatın əbədi qaranlıq tərəflərini də görməyi və onun mahiyyəti haqqında düşünməyi də unutmaq olmaz.

Sabir Bəşirov son məktubunu bu sözlərlə bitirir: *"Əziz dostum, düşünürəm ki, "Ədəbi yol-əbədi yol" adı altında topladığım yazılar sənin yaradıcılığın haqqında diqqətli oxucularda dolğun təsəvvür yarada biləcək. Sağ ol, hələlik bu qədər!".* Bu cür odlu-alovlu yaradıcılıq ehtirasları ilə yaşayan müdrik filosof bu sözləri bir daha təkrar edirəm ki, ölümündən 9 gün əvvəl yazıb. Məktubun sonunda tarix də var: *"11 sentyabr, 2018-ci il, Peştəsər".*

Sabir Bəşirovun ədəbi yol-əbədi yol kitabı söz qədri bilənlər üçün zaman-zaman unudulmayacaq, ədəbi örnək olaraq yaşayacaqdır.

**24.02.2022**

***(Davamı var)***